Tahirə SULTAN
*şairə-publisist*



# TAMBURUN TELİ NAZİK

*müəllif indinin tanınmış haylaçılarından sayılır...*

Bəşər övladının yaratdığı ən gözəl dəyərlərdən biri də musiqi olduğu şəksizdir. Min illərdir ki, insan musiqidən doymur, bezmir və yaradır. Yaxşı olanlar xalq tərəfindən qorunub saxlanılır, zamanın sınağına tab gətirməyənlər isə unudulur. Hər bir millətin, xalqın özünəməxsus musiqisi, musiqi alətləri də var ki, ömrü minilliklərə hesablanıb.

Təmbur məhz türk dilli xalqlara aiddir və Altaylardan Kosovoyadək olan nəhəng bir coğrafi məkanda insanların ürəyinə yol tapıb. Bu gün bu simli musiqi aləti türksoylu xalqlarda- qazaxlarda "dombra", qırğızlarda "dombura", özbəklərdə "dombrak", türkmənlərdə "danbura", osmanlı türklərinə yaxın türklərdə "tambur", bir çox yerlərdə isə "domra" adı ilə məşhurdur.

Azərbaycanda isə bu musiqi aləti "Təbriz tənburu", "Şirvan tənburu", "Balakən damburu" adı ilə tanınır. Yaranma tarixinə gəldikdə isə tənburun arxeoloji mənbələrdə 8 min ilə aid edilən bir tarixi var.Amerikalı arxeoloqlar Cənubi Azərbaycanın Cığamış şəhəri yaxınlığında qazıntılar apardıqları zaman gil qablar üzərində tənbur təsvirlərini aşkar etmişlər.

Azərbaycanın xalq çalğı aləti olaraq tənbur haqqında klassik ədəbiyyatımızda - Nizami Gəncəvinin, Məhəmməd Fizulinin, Qətran Təbrizinin əsərlərində məlumata rast gəlinir. Orta əsr miniatür sənətində Soltan Məhəmmədin çəkdiyi Zöhhakın edamı rəsmində yerdə oturan qoşa telli, qısa qollu Şirvan tənburu çalan musiqiçinin təsviri verilib.

Miniatür mənbələrdə üçtelli Balakən damburu barədə də deyilir: "Yaylaqda musiqi məclisi" (Rəşidəddin, "Cami ət-təvarix, 1528-1529-cu illər, Sankt-Peterburq Dövlət Kütləvi Kitabxanası, Dorn 289. v 188b"). Miniatürdə üç simli musiqi aləti tənburun bir növü olan Balakən damburunun təsviri verilib.

Ədəbi mənbələrdə - "Əhməd Hərami" dastanında tənbur və dambur haqqında beytlər oxunur:

Çalınırdı neyü - dəmburu - tənbur
İçilir idi dolu abi-əngur

Fizulinin "Yeddi cam" poemasında da:

Rəğbət elə tənbura, müğənni gəl ürəkdən
Rəğbət açarı ilə ona da bir qapı aç sən.

Ümumiyyətlə, musiqişünaslar tənburu ən qədim alətlərdən hesab edir, dütar, setar, çahartar, qopuz və bu qəbildən olan musiqi alətlərini tənburun növü kimi təqdim edirlər.

Tənbur, eyni zamanda Balakən damburu, adətən bir çox simli alətlər kimi tut, ərik ağacından yonulur. Bəzən də şabalıd ağacından istifadə olunur. Qolu isə əsasən, qoz ağacından hazırlanır.

Tambur musiqisi instrumental musiqi olaraq da çalınır. Xalq rəqslərinə aid olan dambur rəqsləri də var ki, "Yerli hava", "Kişilər tək", "Kişilər cüt" və sairə.- yaşamaqdadır.

Ayrı-ayrı əsrlərdə ilkin olaraq qurudulmuş heyvan bağırsağından ipək saplardan, mis tellərdən, sonralar isə polietilen saplardan hazırlanıb. Daha çox isə mis tel çəkilmiş damburlardan istifadə olunur.

Bu gün Qax-Zaqatala-Balakən bölgəsində xalq arasında sevilən və ilkin formasını qoruyaraq xalq musiqimizi yaşadan Balakən damburunun ifaçıları və hayla söyləyənləri sadə xalq hikmətinin daşıyıcıları kimi ehtirama layiqdir.

Bir məqamı da oxucuların nəzərinə çatdıraq ki, Balakən haylalarının musiqi mədəniyyəti tariximizdə özünəməxsus yeri var və eyni zamanda haylalarımızda yatan ulu tariximiz də göz önündədir:

Gedib gəzək talanı
Vürğün vuran ilanı
Hunbolçay daş gətirsin
Sonra quraq qalanı

Tuğay çölün düzündə
Qoyun yatan küzündə
Əmim evi qalıbdı
Qanığın o üzündə...

Balakən damburu, ifaçıları, söz sənəti olan hayla və rəqsləri haqqında geniş tədqiqata ehtiyac var. Dambur haqqında daha ciddi araşdırmalar üçün böyük bir "dəfinə" Balakəndə öz tədqiqatçılarını gözləməkdədir.

Mən isə bu işə sevə-sevə baş vuracaq həmkarlarıma öncədən uğurlar arzulayıram, tədqiqatına ehtiyac olan xəzinəni araşdırmağa dəvət edirəm və hər zaman onlara kömək etməyə hazıram.